*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 mart 2016-cı il № 22 (2037) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Münaqişənin həll olunmaması təkcə Ermənistanın mövqeyi ilə bağlı deyil

***Hər il olduğu kimi, bu il də ölkəmizdə böyük coşqu ilə keçirilən bahar təravətli Novruz şənlikləri yenə arxada qaldı, özündən sonra xoş və unudulmaz təəssüratlar qoydu. Bu ümumxalq şənliklərində Azərbaycan Prezidenti İlham Əliyev və onun ailə üzvləri də iştirak etdi. Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gələrək Novruz tonqalını alovlandırdı. Bayram şənliyində çıxış edərkən ölkə rəhbəri milli sərvətimiz olan Novruz bayramı münasibəti ilə xalqımızı ürəkdən təbrik etdi və bütün azərbaycanlılara xoşbəxtlik, yeni uğurlar arzuladı.***



Milli dəyərlərimizin qorunması üçün Azərbaycan dövlətinin ardıcıl siyasət apardığını vurğulayan Prezident İlham Əliyev bildirdi ki, müstəqil Azərbaycan dövləti də milli-mənəvi dəyərlər üzərində qurulmuşdur: "Bu il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd edəcəyik. Bu illər ərzində Azərbaycan sürətlə inkişaf edib.

Müstəqilliyimizin ilk illərində ölkəmizdə gedən proseslər bütün Azərbaycan xalqını çox narahat edirdi. Vətəndaş müharibəsi, iqtisadi və siyasi böhran, torpaqlarımızın işğal altına düşməsi nəticəsində Azərbaycanın gələcəyi sual altında idi. Xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət dəyişdi, sabitlik, asayiş bərpa edildi və Azərbaycan inkişaf yoluna qədəm qoydu. O vaxtdan bu günə qədər biz bu inkişaf yolundan dönməmişik."

Azərbaycanın dünya miqyasında böyük hörmətə malik ölkə olduğunu diqqətə çatdıran dövlət başçısı ölkəmizin Cənubi Qafqaz bölgəsində əməkdaşlıq meydanı olduğunu, sabitləşdirici, barışdırıcı rol oynadığını söylədi.

Prezident İlham Əliyev çıxışında ölkəmizin iqtisadi inkişafının təmin edilməsilə bağlı qarşıya qoyulan vəzifələr haqqında danışarkən aparılan islahatların mahiyyətində neft amilindən asılılığın tamamilə aradan qaldırılmasının durduğunu söylədi.

Azərbaycanın uzunmüddətli, dayanıqlı iqtisadi inkişafının təmin edilməsi üçün konkret addımlar atıldığını vurğulayan ölkə rəhbəri əminliklə qeyd etdi ki, ilin sonuna qədər davam edən əsas islahatlar, yeni, qəbul ediləcək qərarlar ondan sonra elə şərait yaradacaq ki, Azərbaycan iqtisadiyyatı neft amilindən asılılığını azaldacaq və tam aradan götürəcəkdir. Dayanıqlı inkişaf bizim hədəfimizdir. Onu da qeyd etmək istəyirəm ki, biz ancaq öz resurslarımıza əsaslanırıq.

Təbii ki, hər bir ölkənin tərəqqisi milli, irqi, dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar üçün demokratik azadlıqların təmin edilməsi və insan haqlarının qorunmasından, daxili sabitliyin, əmin-amanlığın yaradılmasından çox asılıdır. Dövlət başçısının bayram şənliyində bildirdiyi kimi, Azərbaycan bu sahədə bir çox ölkələr üçün nümunə ola bilər.

Təsadüfi deyil ki, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilib. Eyni zamanda ölkəmizdə Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcək. Prezident İlham Əliyevin bununla bağlı söylədikləri yetərincə maraqlı və aktualdır: "Biz göstəririk ki, bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, yaşayacaqlar. Azərbaycan dövləti onları, onların maraqlarını, milli duyğularını, ləyaqətini qoruyur. Onlar bizim qardaşlarımızdır. Bizim gücümüz birliyimizdədir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim sərvətimizdir. Biz bunu qorumalıyıq, qoruyacağıq və bir daha demək istəyirəm ki, dünyaya yol göstəririk. Bir çox məsələlərlə bağlı yol göstəririk - inkişaf, müstəqillik, ləyaqət, prinsipial siyasət, xalqlararası, millətlərarası münasibətlər, din-dövlət münasibətləri, energetika siyasəti, nəqliyyat siyasəti. Budur bugünkü Azərbaycanın reallıqları."

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolu, daxili əmin-amanlıq, iqtisadi inkişaf, dinc yanaşı yaşamaq və qarşılıqlı səmərəli əməkdaşlıq Azərbaycanın sabit inkişafını təmin etməklə yanaşı, beynəlxalq nüfuzunun artması üçün möhkəm zəmin yaradır. Son iki ay ərzində - yanvarın sonlarından bu günə qədər səkkiz dövlət və hökumət başçısının Azərbaycana səfərini, həmçinin Prezidentimizin bir çox beynəlxalq tədbirlərdə, Davos Dünya İqtisadi Forumunda iştirakı ölkəmizin iqtisadi inkişafının və beynəlxalq aləmdə artan nüfuzunun bariz nümunəsi kimi dəyərləndirilir. Prezident İlham Əliyev yüksək tribunalarda çıxış edərək Azərbaycanın dövləti mənafeyini ləyaqətlə müdafiə edir və milli maraqlardan çıxış edərək öz sözünü deyir. Təbii ki, bütün iqtisadi, siyasi, milli maraqların başında Azərbaycanın ərazi bütövlüyü, havadarlarının hərbi-siyasi dəstəyilə Ermənistanın işğal etdiyi, Vətənimizin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın və digər ərazilərin azad edilməsi dayanır. Beynəlxalq hüququn, əslində, bizim tərəfimizdə olması, dövlət başçısının bəyan etdiyi kimi, Azərbaycanın mövqeyini gücləndirən amillərdəndir: "Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçı siyasəti ilə bağlı öz sözümüzü deyir və bütün arqumentlərlə erməni təbliğatını darmadağın edirik."

**(Ardı 2-ci səhifədə)**



Müdafiə naziri "Açıq qapı" günündə Qusar rayonunda olub

3-cü səhifədə



"Eyni dildə danışmaq qardaşlığın bariz nümunəsidir"

6-cı səhifədə



Məktəblilər hərbi hissələrdə olublar

7-ci səhifədə



Ordu quruculuğunda azərbaycançılıq

8-ci səhifədə

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Münaqişənin həll olunmaması təkcə Ermənistanın mövqeyi ilə bağlı deyil

(Əvvəli 1-ci səhifədə)

Ancaq təəssüflər olsun ki, ərazi bütövlüyü ilə bağlı beynəlxalq hüquqa bir sıra nüfuzlu dövlətlərin ikili standartlarla yanaşması münaqişənin həllinə əngəl törədir. Beynəlxalq məsələlərdə Azərbaycan üçün başlıca problemin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin olduğunu deyən ölkə rəhbəri təəssüflə qeyd etdi ki, bu istiqamətdə heç bir irəliləyiş yoxdur: "Bunun başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi, bu məsələ ilə bilavasitə məşğul olanların biganəliyi və bəzi hallarda təxribatıdır."



Azərbaycan Prezidenti bir daha şənlik iştirakçıları qarşısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yardımçı olmaq əvəzinə, münaqişənin dondurulmasına can atan ATƏT-in Minsk Qrupunun fəaliyyətini haqlı olaraq kəskin tənqid etdi: "Onsuz da Minsk Qrupunun həmsədrlərinin fəaliyyətinə Azərbaycan xalqının o qədər də böyük inamı olmamışdır. Amma yanvar ayında onların törətdikləri əməllər bu inamı tamamilə dağıtmışdır. Bildiyiniz kimi, Avropa Şurası Parlament Assambleyasında iki qətnamə irəli sürülmüşdür. Bu qətnamələr çox dərin təhlil üzərində tərtib edilmişdir. Böyük iş görülmüşdür və bir qətnamə səs çoxluğu ilə qəbul edildi. Orada erməni işğalı pislənildi, erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklərlə bağlı Avropa deputatları öz səslərini ucaltdılar. Əfsuslar olsun ki, digər qətnamə qəbul edilmədi. Lehimizə cəmi dörd səs çatmamışdır. Bizim bütün təhlillərimiz göstərirdi ki, hər iki qətnamə rahatlıqla keçəcək. Çünki bizdə bununla bağlı kifayət qədər məlumatlar var idi. Avropa Şurası Parlament Assambleyasının deputatları, bir çox ölkələrin xarici işlər nazirlikləri bu əminliyi bizdə yaratmışdılar. Ancaq Minsk Qrupunun həmsədrlərinin Avropa Şurasının işinə kobudcasına müdaxiləsi bu xoşagəlməz vəziyyətə gətirib çıxarıb. Onlar Avropa Şurasına səfər etmişlər. Orada Avropa Şurasının rəhbərliyinə bu qətnamənin qəbul olunmaması üçün təzyiq göstərmişlər ki, guya bu qətnamə münaqişənin həllinə problem yaradır. Biz bunu təxribat kimi qəbul edirik. Onu da qeyd etməliyəm ki, nəinki Strasburqda, eyni zamanda bir çox Avropa ölkələrinin xarici işlər nazirliklərinə də onlar oxşar siqnalları, mesajları vermişlər ki, bu qətnamə qəbul edilməsin. Bunun nəticəsində, bir daha demək istəyirəm ki, bizə cəmi dörd səs çatmadı. Əlbəttə, bu qətnamə qəbul olunsaydı, daha yaxşı olardı. Nəzərə alsaq ki, birinci qətnamə qəbul edilmişdir və orada bizə lazım olan bütün müddəalar öz əksini tapmışdır, ikinci qətnamənin qəbul edilməməsi böyük faciə deyil. Mən bunu sadəcə ona görə deyirəm ki, Azərbaycan xalqı bir daha bilsin, münaqişənin həll olunmaması təkcə Ermənistanın mövqeyi ilə bağlı deyil."

Münaqişənin uzadılmasının kökündə Minsk Qrupu həmsədrlərinin pozucu fəaliyyətinin, ədalətsiz ikili standartların dayandığını ictimaiyyətin diqqətinə çatdıran dövlət başçısı onu da vurğuladı ki, etiraf etmək nə qədər acı olsa da, bu, real siyasətdir və biz bu siyasəti qəbul etmirik. Azərbaycan dövlətinin siyasəti beynəlxalq hüquqa, ədalətə, əməkdaşlığa əsaslanır.

Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın haqlı mənafeyinə uyğun, ədalətli həllində ölkəmizin iqtisadi, ictimai-siyasi cəhətdən daha da güclənməsi, beynəlxalq aləmdə nüfuzunun durmadan möhkəmləndirilməsilə yanaşı, qüdrətli Silahlı Qüvvələrin mövcudluğu da zəruri amillərdən hesab edilir. Azərbaycan rəhbərliyi ona görə ordu quruculuğunu daim diqqətində saxlayır. Qoşunlarımız ən müasir silah və texnika ilə təmin edilir, döyüş hazırlığı taktiki və ixtisas hazırlığı prosesində, gündəlik təlimlərdə möhkəmləndirilir. Silahlı Qüvvələrin döyüş qabiliyyətində həlledici amillərdən olan şəxsi heyətin döyüş ruhunun artırılması üçün bütün kompleks tədbirlər həyata keçirilir, onların sosial-məişət problemləri davamlı olaraq həll edilir.

Azərbaycan dövlətinin qarşısında duran taleyüklü problemlərin aradan qaldırılmasında Silahlı Qüvvələrin roluna toxunan Prezident İlham Əliyev bildirdi: "Münaqişənin həlli üçün ilk növbədə ölkəmiz, ordumuz daha da güclü olmalıdır. Bu istiqamətdə böyük işlər görülür. Bu gün biz təmas xəttində tam üstünlüyü əldə etmişik. Düşmənə sarsıdıcı zərbələr vurulur, qarşı tərəf panikaya qapılır və anlayır ki, xaricdən siyasi, iqtisadi və hərbi dəstək olmasa, işğal edilmiş torpaqları bir həftə belə işğal altında saxlaya bilməyəcək. Biz isə güclənirik, güclənməliyik. Bu məsələni Azərbaycan xalqı həll edəcək. Mən buna əminəm."

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin rəhbərliyi hərbi hospitalda olub



***Martın 19-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Novruz bayramı ilə əlaqədar Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olublar.***

Müdafiə Nazirliyinin rəhbərliyi hospitalın həyətində ucaldılmış ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyaraq, öz ehtiramlarını ifadə edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hospitalın korpuslarına baş çəkən Müdafiə naziri orada müalicə alan şəxsi heyətlə görüşüb, onların səhhəti ilə maraqlanıb və Novruz bayramı münasibəti ilə təbrik edib.

Ağır xəstələrə ixtisaslı tibbi yardımın göstərilməsi məqsədilə general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, 10 ədəd ən müasir çoxfunksiyalı çarpayı hərbi hospitalın təminatına verilib.

Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən hərbi qulluqçulara bayram sovqatları təqdim edilib və tezliklə sağalaraq xidmət yerlərinə qayıtmaları arzu olunub.



# Müdafiə naziri "Açıq qapı" günündə Qusar rayonunda olub

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, martın 20-də birlik, birləşmə və hərbi hissələrdə xalqımızın müqəddəs Novruz bayramı "Açıq qapı" günü ilə birgə qeyd olundu.***



Həmin gün ölkəmizin şimal bölgəsində yerləşən "N" hərbi hissəsinin də həyəti bayramsayağı bəzədilmişdi. Vətənin əvəzsiz keşikçiləri hesab olunan əsgərlərin üzündə xoş bir təbəssüm vardı. Onlar gülər üzlə salamlaşır, bir-biri ilə ürəkdən bayramlaşırdılar. Həmin gün hava da çox soyuq idi. Buna baxmayaraq bayram ovqatı, baharın gəlişi insanların ürəklərini isidirdi.

Həmin gün Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi hissəyə gəlişi əsgər və valideynlərə, qonaqlara xoş əhval-ruhiyyə aşılamışdı. Öncə hərbi hissənin həyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü önünə tər çiçəklər qoyuldu. Sonra Müdafiə naziri ictimaiyyətin nümayəndələri ilə Şəhidlər xiyabanına gələrək Vətənimizin azadlığı uğrunda şəhid olan döyüşçüləri ziyarət etdi.



Hərbi hissənin sıra meydanında düzənlənmiş bayram tədbirinə əsgər valideynləri və başqa qonaqlar da təşrif buyurmuşdular. Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi ilə təşkil edilən bayram mərasimində Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının və Qusar rayon Mədəniyyət Evinin kollektivləri də iştirak edirdi. Tədbirin aparıcısı polkovnik Abdulla Qurbani Novruzun simvolu olan tonqalın yandırılmasını Müdafiə naziri general-polkovnik Zakir Həsənovdan xahiş etdi. Tonqalı alovlandıran ordu rəhbəri əsgərləri, valideynləri və digər qonaqları salamladı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, ordumuzun silah-sursat, əşya və ərzaq təminatında əsaslı dəyişikliklər edildiyini bildirdi. Hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də qısa zamanda çox böyük işlərin görüldüyünü, yüzlərlə hərbçi ailəsinin daimi və xidməti mənzillə təmin olunduğunu diqqətə çatdırdı.

Valideynlər adından çıxış edən Nizami Mehdizadə Silahlı Qüvvələrin Ali Baş Komandanına və Müdafiə nazirinə əsgərlərə yaradılan yüksək şəraitə görə təşəkkür etdi. Bildirdi ki, son illər orduda aparılan islahatlar onları ürəkdən sevindirir. "Oğlumun yataq yeri ilə, xidmət şəraiti ilə yaxından tanış oldum və çox razı qaldım", - deyən valideyn "Açıq qapı" gününə görə razılığını ifadə etdi.

Qusar rayon Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Canəli Hörmətov təmsil etdiyi birliyin üzvləri



adından Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərə hər an hazır olduqlarına söz verdi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov valideyn və qonaqlarla birlikdə silah və döyüş texnikaları ilə tanış oldu.

Əsgər yeməkxanasında bayram süfrəsi açılmışdı. Müasir məişət avadanlıqlarıyla təchiz olunmuş yaraşıqlı əsgər yeməkxanasında "Əsgər Baharı - 2016" tortu bayrama xüsusi rəng qatırdı. Müdafiə naziri general-polkovnik Zakir Həsənov əsgərlərlə nahar edəndən sonra bayram tortunu kəsdi və onlara xidmətdə uğurlar arzuladı.

Tonqalın ətrafında bir ananın əsgərlə şirin-şirin söhbəti diqqətimi çəkdi.

Öyrənirəm ki, Əsli Səfərova Neftçala rayonunun Qırmızıkənd kəndindən gəlib. Orta məktəbdə müəllimə işləyir. Onun qızı ailəsi ilə Qusar rayonunda yaşayır. Novruz bayramını nəvələrinin yanında keçirmək üçün qonaq gəlib. Görüşdüyü əsgər Samədin Əsədli isə Neftçalada onun qapı qonşusudur. Əsli xanım eşidəndə ki, bu gün hərbi hissədə "Açıq qapı" günüdür, nəvəsini də götürüb Samədinin yanına gəlib. O, ordumuzla bağlı təəssüratlarını bizimlə bölüşdü:

- Əvvəlki illərlə müqayisədə orduda xeyli dəyişikliklər baş verib. Bir vətəndaş olaraq məni bu dəyişikliklər çox sevindirir. Qonşunun övladı hərbi xidmətindən olduqca razıdır. Komandirlərin diqqət və qayğısından razılıq edir. Qürur duyuram ki, belə güclü ordumuz var.

Ordu quruculuğuna göstərilən diqqət və qayğıya görə dövlətimizin rəhbərliyinə minnətdarlığını bildirən Əsli Səfərova gələn il Novruz bayramının işğaldakı torpaqlarımızda qeyd olunacağına inamlı olduğunu bildirdi.




**"Azərbaycan Ordusu"**

# BMT-nin mənzil qərargahında Novruz bayramı qeyd olunub

***Novruz bayramı BMT-nin mənzil qərargahında geniş qeyd olunub.***

AZƏRTAC xəbər verir ki, BMT Baş Məclisinin 2010-cu ildə qəbul etdiyi qərarla elan olunan Beynəlxalq Novruz Günü təşkilatın qərargahında altıncı dəfə qeyd edilib. Azərbaycan, Türkiyə, Əfqanıstan, Hindistan, İran, İraq, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistanın BMT-dəki daimi nümayəndəliklərinin birgə təşkil etdiyi mərasimdəki çıxışlarda sülh və qardaşlıq məsələlərinə geniş yer ayrılıb.

BMT-nin baş katibi Pan Gi Mun mərasimdə çıxış edərək Novruzun dünya mədəniyyətinin mirası olduğunu söyləyib. Dünyada Novruzu qeyd edən yüz milyonlarla insanın bayram sevincinə şərik olmaqdan məmnunluq duyduğunu bildirən baş katib deyib: "Bugünkü çağırışlardan və fərqliliklərdən daha qədim tarixə sahib olan Novruz bu xüsusiyyəti ilə sərhədləri aşmaqda və qarşılıqlı inam hissi yaratmaqdadır. Novruzun "fərqliliklər içərisində birlik bayramı" olduğunu vurğulayan Pan Gi Mun BMT-nin Novruzu qeyd etməsindən məmnun olduqlarını bildirib.

Çıxışlardan sonra bayram tədbirində Novruzun rəmzi olan ləziz təamlar təqdim edilib.

AZƏRBAYCAN ORDUSU

# Novruz bayramı hərbi hissələrdə "Açıq qapı" günü ilə birgə qeyd edildi

***Xalqımızın özünəməxsus adət-ənənələrindən biri də Novruz bayramıdır. Azərbaycanın ən qədim dövrlərinə aid edilən Novruz adətləri Azərbaycan xalqının həyatında dərin izlər buraxıb.***



Novruz bayramını düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinin əsgər və zabitləri də yüksək əhval-ruhiyyə ilə qarşılayıblar. Yeni müasir hərbi şəhərcik bu günlərdə hərbçilərimizin istifadəsinə verilib. Hərbi hissənin geniş meydanı bayram atributları ilə bəzədilib: tonqallar qurulub, masaların üzərinə bayram xonçaları və səmənilər düzülüb. Bu gün şəxsi heyət həm də "Açıq qapı" gününün keçirilməsi ilə əlaqədar qonaqların qarşılayacaqdı. Artıq hərbi hissənin əsgər və zabitləri meydanda düzülüb. Vətənimizin müdafiəçilərini bu əziz bayram günündə təbrikə gələn Beyləqan və Xocavənd rayon ictimaiyyətinin nümayəndələri, veteranlar, məktəblilər, əsgər valideynləri və yaxınları əraziyə daxil olurlar. Novruz bayramı münasibəti ilə keçirilən tədbir hərbi hissə komandirinin Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyevə məruzəsi ilə başlayır. Sonra ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda edən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılır. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilir. Birlik komandirinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Elçin Kərimov ordumuzun son illər sürətli inkişafından danışır, belə möhtəşəm hərbi şəhərciyin ön xətdə yaradılmasının önəmliliyini qeyd edir. "Bu gün biz sizlərlə birlikdə burada düşmənlə çox yaxın mövqedə xalqımızın ən əziz bayramı olan Novruzu qarşılayırıq", - deyə çıxışına davam edən zabit Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Silahlı Qüvvələrin şəxsi heyətinə təbrikindən bəzi məqamları tədbir iştirakçılarının diqqətinə çatdırır. "Xalqımızın ümummilli lideri Heydər Əliyev milli dəyərlərimizin, milli ənənələrimizin qorunub saxlanılması və təbliğinə həmişə xüsusu önəm vermişdir. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev də bu gün ulu öndərimizin ənənələrini davam etdirərək Novruzun ölkəmizdə ümumxalq bayramı kimi qeyd olunması üçün səylərini əsirgəmir.



Silahlı Qüvvələrimizin şəxsi heyəti 2016-cı ilin "Novruz bayramı"nı böyük ruh yüksəkliyi ilə, döyüş və mənəvi-psixoloji hazırlıqla qazandığı nailiyyətlərlə qarşılayır.

Xalqımız Vətənin igid, mübariz döyüşçülərinə güvənir, işğal altında olan torpaqlarımızın azad ediləcəyi günü səbirsizliklə gözləyir."

Sonra general-leytenant Kərim Vəliyev Müdafiə nazirinin adından şəxsi heyəti və qonaqları salamlayaraq, Novruz bayramı münasibəti ilə təbriklərini çatdırır və bildirir ki, belə müasir hərbi kompleksin inşa edilməsi ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ordunun müdafiə qüdrətinin möhkəmlənməsinə göstərdiyi diqqətin təzahürüdür. "Silahlı Qüvvələrdə aparılan islahatlar, genişmiqyaslı təlimlər, "Açıq qapı" günlərinin və vətənpərvərlik tədbirlərinin keçirilməsi onu göstərir ki, ordumuz daha da güclənir, xalqımız öz orduna güvənir. Əsgər valideynlərinə "Açıq qapı" günündə imkan yaranır ki, ictimaiyyət nümayəndələrinin, hərbi hissə komandanlığının birgə iştirakı ilə övladlarının xidmət keçdiyi hərbi hissə ilə yaxından tanış olsunlar" deyərək, hərbçilərimizə şərəfli xidmətlərində uğurlar arzulayan nazir müavini işğal olunmuş torpaqlarımızın tezliklə azad olunacağına əminliyini bildirir.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov və Ağdaş rayon Qarabağ Müharibəsi Veteranları, Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin sədri İsmayıl Xudiyev bayram münasibəti ilə ordumuzun şəxsi heyətini təbrik edərək, Ali Baş Komandanın döyüş əmrinə, torpaqlarımızın azadlığı uğrunda müqəddəs müharibəyə hər an hazır olduqlarını bildirirlər.

Bayram tədbiri Beyləqan rayon Mədəniyyət Mərkəzi Xalq Teatrının aktyorlarının təqdimatında "Yurdumuza Bahar gəlir" ədəbi-bədii kompozisiyası ilə davam edir. Baba Dərviş məzəli söhbətləriylə, Dədə Qorqud torpaq sevgili öyüd-nəsihətləriylə, Vətənə övladını qurban deyən ana və oğulun görüş səhnələri, Novruz qəhrəmanları olan Bahar qızın deyimləri, Kosanın və Keçəlin şən oyunları hər kəsdə xoş ovqat yaradır.

Milli geyimdə ölkənin ən hündürboylu adamı Aqil Sadıqzadə və ən balacaboylu Nuşirəvan Rəhimov meydana dəvət edilir. Hər kəs maraqla onlara yaxınlaşıb şəkil çəkdirir. Bundan sonra qonaqların hərbi şəhərciklə tanışlığı başlayır. Valideynlər əsgər yataqxanasını, hamam-camaşırxana kompleksini gəzib, hərbi hissədəki şəraitdən razı qaldıqlarını bildirirlər. Camaşırxanada çalışan Bənövşə Süleymanova, Rəna Xudiyeva və Yazgül Babayeva qeyd edirlər ki, burada hər bir əsgərə öz doğma övladları kimi qayğı göstərirlər.



İctimaiyyət nümayəndələri, valideynlər əsgərlərin geyim və ərzaq nümunələri ilə də tanış olur, silah-sursatlara, döyüş vasitələrinə, hərbi texnikalara baxış keçirirlər. Hətta tank heyəti onlara texnikanın necə idarə olunması anını nümayiş etdirir. Onlar hərbi şəhərcikdə fəaliyyət göstərən tibb məntəqəsinə də baş çəkirlər. Müasir tibb məntəqəsi lazaret, ambulator və izolyasiya hissələrindən ibarətdir. Ayrılıqda izolyasiya hissəsinə isə hava damcı və bağırsaq infeksiyası bölmələri daxildir.

General-leytenant Kərim Vəliyev, veteranlar və qonaqlar hərbi şəhərciyin ərazisində xatirə olaraq ağac əkirlər.



Nazir müavini valideynləri maraqlandıran sualları ətraflı cavablandırır.

* * *

Səhərdir. Cəbhə bölgəsindəki "N" hərbi hissəsində böyük canlanma var. "Açıq qapı" günü və Novruz bayramının gəlişi ilə əlaqədar burada təntənəli tədbir keçirilir. Həm zabit və əsgərlərin, həm də mərasimdə iştirak etməyə gəlmiş valideynlərin üzündən fərəh hissi duyulur.

Tədbir açıq elan olunandan sonra ümummilli lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Novruz bayramı ilə əlaqədar şəxsi heyətə təbriki oxundu.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev və birlik komandiri general-mayor Hikmət Həsənov tədbir iştirakçılarının alqış sədaları altında Novruz tonqalını alovlandırdılar. Sonra hər iki general hərbi hissənin ərazisində ağac və gül kolları əkdilər, zabit və əsgərlərlə öz sevinclərini bölüşdülər.

Tədbir iştirakçılarını təbrik etmək üçün çıxışlar başlandı. General-mayor Rasim Əliyev Müdafiə nazirinin Novruz bayramı münasibəti ilə təbrik və salamlarını tədbir iştirakçılarının diqqətinə çatdırdı. Sonra çıxışına davam edərək dedi:

- Əziz və hörmətli tədbir iştirakçıları. Bu gün yurdumuza Novruz bayramı qədəm qoyur. Bayram münasibəti ilə hər birinizi ürəkdən təbrik edir, həm xidmətinizdə, həm də şəxsi işlərinizdə uğurlar arzulayıram. Novruz bayramı xalqımızın ən əziz bayramlarından biridir. Novruz bayramı xeyir-bərəkət, xeyirxahlıq və qəhrəmanlıq bayramıdır. Novruz bayramı hər bir kəsə yeni ovqat gətirir, ürəklərdə yeni arzular çiçəkləyir. Uzun illərdir xalqımız bu bayramı yaddaşında, ürəyinin ən mübhəm guşəsində qoruyub bu günə çatdırıb. Təəssüflənirik ki, biz bu bayramı erməni qəsbkarlarının işğalı altında qalan torpaqlarımızda qeyd edə bilmirik. Əminəm ki, gündən-günə güc və qüdrətini artıran Azərbaycan Ordusu düşmən tapdağında olan torpaqlarımızı tezliklə azad edəcək. Bax, onda biz Novruz tonqallarını o yerlərdə də alovlandıracağıq. Bu gün başımızın üstündə ucalan üçrəngli bayrağımız Şuşanın, Xankəndinin... səmasında da dalğalanacaq.

(ardı 5-ci səhifədə)

# Novruz bayramı hərbi hissələrdə "Açıq qapı" günü ilə birgə qeyd edildi



(əvvəli 4-cü səhifədə)

General-mayor Hikmət Həsənov, Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqil Məmmədov, mayor Vüqar Şıxlınski, mayor Mirəhməd Şeyidov və başqaları zabit və əzgərlərin Novruz bayramını təbrik edərək xoş arzularını bildirdilər.

Xidmətdə fərqlənən bir qrup əsgərə qısamüddətli məzuniyyət vərəqləri təqdim olundu.

Sonda Bərdə rayon "Xalq ulduzu" ansamblının üzvləri maraqlı konsert proqramı ilə şəxsi heyət qarşısında çıxış etdilər. Əsgər Əfqan Məmmədovun ifa etdiyi mahnılar da tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

Günorta şəxsi heyət üçün bayram süfrəsi açıldı. Hər bir əsgərə bayram sovqatı verildi.

* * *

"Açıq qapı" günü "N" hərbi hissəsində də təntənəli surətdə keçirildi. Xalqımızın qədim adət-ənənələrini, milli dəyərlərini özündə yaşadan Novruz bayramı günündə respublikamızın müxtəlif guşələrindən gəlmiş valideynlər, ictimaiyyət nümayəndələri hərbi hissədə yüksək səmimiyyət və ehtiramla qarşılandılar. Zabit Rasim Manafov məlumat verdi ki, Silahlı Qüvvələrdə önəmli yer tutan hərbi hissə müasir ordumuzun qurucusu olan ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə həyata vəsiqə



alıb. Vətənimizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda düşmənə qarşı döyüşlərdə şəxsi heyət fəal iştirak edib. Ağdərə, Tərtər, Füzuli, Naxçıvan bölgələrində döyüş əməliyyatları aparan hərbi qulluqçular şərəfli döyüş yolu keçmişlər. Vətənə, xalqa sonsuz sədaqətləri olan döyüşçülərin xatirəsində dərin iz buraxan hadisələr isə ulu öndər Heydər Əliyevin şəxsi heyətlə olan görüşləridir.

Tədbir iştirakçıları öncə xalqımızın xilaskarı Heydər Əliyevin abidəsi önünə qızılgüllər qoyaraq, onun xatirəsini yad etdilər. Müstəqilliyimizin rəmzi olan Dövlət himni səsləndirildi.

Sonra tədbir Novruz bayramının atributları ilə bəzədilmiş mərkəzi meydanda davam etdirildi. Geniş meydan bayram büsatlı idi. Hərbi qulluqçular, mədəniyyət, incəsənət ustaları, güc və qabiliyyətlərini nümayiş etdirməyə hazır olan əsgərlər öz yerlərini tutmuşdular.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Novruz bayramı münasibəti ilə xalqımıza təbriki səsləndirildi.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun



şəxsi heyətə təbrik məktubu oxundu.

Gəncə Qornizonu Zabitlər Evinin solistləri Natiq Cavadxanlının, Vüqar Hüseynovun, Zeynəb Abdullayevanın, aktyorlar Şəlalə Rüstəmovanın, Natiq Lətiflinin və başqalarının çıxışları rəğbətlə qarşılandı.

Novruz bayramının qədimliyindən söhbət açan xalq artisti Məmmədəli Balayev ulu Dədə Qorqudun dili ilə bayram iştirakçılarını təbrik etdi. Ölkəmizə, xalqımıza əmin-amanlıq və qələbə sevinci arzuladı.



Adət-ənənələrə uyğun olaraq mərkəzi meydanda bayram tonqalı yandırıldı. Əsgər valideynləri, ictimaiyyət nümayəndələri əsgər yeməkxanasında nahara dəvət olundular. Valideynlər yaradılan yüksək şəraitə və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Tədbirdə Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri, əlaqədar qurumların əməkdaşları iştirak etdilər.

* * *

Novruz bayramıdır. Yazın gəlişi hər yanda hiss olunur. Ağacların tumurcuqları da, budaqlarda ötüşən quşlar da, yaşıllıqlar da, uşaqların aşıb-daşan sevinci-fərəhi də yazın gəlişinə ad olub. Uşaqlar "Gəl-gəl, a yaz günləri..." - demir. Yaz günləri gəlib axı!..

Novruzun ilk günündə hamı bir istəyin təşnəsidir: gələn ilin Novruzunda işğal olunmuş rayonlarımızda da tonqallar qalayaq, 26 il çəkən sıxıntılar ərisin.

Bu əziz bayramın könül xoşluğunu oğluyla birlikdə yaşamaq əsgər atasına, əsgər anasına gözəl bayram sovqatıdı. Bu qədərsiz sevinci Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrindən birinin nəzarət-buraxılış məntəqəsinin qarşısında dayananların baxışlarından da oxumaq çətin deyildi. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmriylə Silahlı Qüvvələrimizdə keçirilən "Açıq qapı" günü Novruz bayramının fərəhinə fərəh qatıb.

Bir tərəfdə dayanıb vaxtın çatacağı anı səbirsizliklə gözləyənlərlə söhbətləşdim.

Əlibala Həlimov Qəbələnin Vəndam kəndindəndi, oğlu Əfsun burada xidmət edir. Qürurla, iftixarla bildirdi ki, oğlu Süleyman da, Fərid də hərbi xidmətini yerinə yetirib. Əfsun hələ uşaqlığından qardaşlarının əsgər adıyla qürrələnərdi, "Mən də əsgər olacam!" - deyərdi. Bir ildi xidmət edir. Bu müddət ərzində komandirləri onun xidmətindən həmişə razılıq edib.

- Müdafiə nazirinin əmriylə vaxtaşırı keçirilən "Açıq qapı" günü ata-analara böyük hörmətdi, - deyir valideyn. - Sevinirik ki, ordumuz güclüdür, qüdrətlidir. Əsgərlər üçün yüksək səviyyəli şərait yaradılıb. Belə bir şəraitdə xidmət edən əsgər, əlbəttə ki, nizamnamələrin tələblərinə, komandirlərin, zabitlərin əmr və göstərişlərinə daha məsuliyyətlə əməl etməlidir.

Sirac Vəlizadə isə İsmayıllının Təzəkənd kəndindən gəlib. Oğlu Vəliağa burada xidmət edir.

- İlk vaxtlar o da darıxırdı,



biz də. Yeni ildə də "Açıq qapı" günü oldu. Onda oğlumun xidmət şəraiti ilə yaxından tanış oldum. İndiyəcən keçirdiyim narahatlığa görə özümü qınadım. Belə bir şəraitdə xidmət edən əsgərə görə heç kim narahat olmamalıdır...

"Açıq qapı" günü açıq elan edildi. Birinci dərəcəli kapitan Şahin Məmmədov, zabitlər, valideynlər, ictimaiyyətin nümayəndələri ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə tər güllər qoydular...

Dövlət himnimiz hamının ürəyini coşdurdu, bayram ovqatına qürur gətirdi...

Yüksək rütbəli zabit valideynləri, ictimaiyyətin nümayəndələrini, şəxsi heyəti bayram münasibəti ilə təbrik etdi, hər birinə cansağlığı, xoşbəxtlik arzuladı. Əmin olduğunu bildirdi ki, Ali Baş Komandanın əmrinə hər an hazır olan hərbi dənizçilər bundan sonra da nümunəvi xidmət edəcəklər...

"Açıq qapı" günündə qərargahın qarşısında ağac əkildi. Zabitlərlə əsgər ata-analarının birlikdə əkdikləri ağaclar zaman anlamında sabahın matrosları üçün göz oxşayan istirahət yeri olacaq.

Hərbi Dəniz Qüvvələrində istifadə edilən silahların, geyimlərin nümayişində zabitlər ətraflı məlumatlar verdilər.

Əsgərlərin səliqəli yataq otaqları, yeməkxana şəraiti hamının könlünə yatdı...

"Açıq qapı" günü əsl bayram ovqatıyla qarşılandı. Səbail rayon Mədəniyyət Evi solistlərinin iştirakıyla geniş konsert təşkil edildi. Mahnılar, rəqslər, Novruz bayramının carçılarının - Bahar qızın, Kosanın, Keçəlin gəlişi, xoş arzuları matroslara əsl bayram ovqatı aşıladı...

Təranə Sadaylının matros oğluna dedikləri bir az əvvəlki kövrəkliyi tamam unutdurdu:

- Gələndə də söz veribsən, hərbi and içəndə də. Bundan sonra da adın yaxşılar sırasında çəkilsin, oğlum!..

Matros anasının dediklərinin bütün anaların adından deyildiyini düşündüm...

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# "Terrorçuların" məkanı məhv edildi

## Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları "TURAZ Şahini - 2016" təlimləri çərçivəsində müştərək əməliyyatlar keçiriblər



***Azərbaycanla Türkiyə arasında 2016-cı il üçün nəzərdə tutulmuş ikitərəfli hərbi əməkdaşlıq proqramına əsasən davam edən "TURAZ Şahini - 2016" hərbi təlimlərində hər iki ölkənin Hərbi Hava Qüvvələrinin bölmələri növbəti taktiki-uçuş tapşırıqlarını yerinə yetiriblər.***

Uçuşlar zamanı tapşırıqlar asandan çətinə doğru artırılıb.

Təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum və İl-76 hərbi-nəqliyyat təyyarələri iştirak edirlər. Türkiyə tərəfindən təlimlərə F-4 və F-16 təyyarələri, həmçinin AS532 Cougar helikopteri cəlb edilib.

Azərbaycan şahinləri qardaş ölkədə keçirilən təlimlərə qabaqcadan yetərincə hazırlaşmışdılar və Konya şəhərində həyata keçirilən qarşılıqlı taktiki uçuşlarda bu özünü təlim tapşırıqlarının yerinə yetirilməsində dolğun büruzə verirdi.

Onu da qeyd edək ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin qardaş ölkədən olan həmkarlarıyla birgə taktiki-uçuş tapşırıqlarının yerinə yetirilməsilə bağlı təcrübəsi var. Artıq ikinci ildir ki, türk pilotlarla birgə təlimlərdə şərti tapşırıqları yerinə yetirən şahinlərimiz peşəkarlıq baxımından öz bacarıqlarını nümayiş etdiriblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata əsasən, birgə taktiki-uçuş təlimlərinin növbəti günündə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları müştərək əməliyyat keçiriblər. Əməliyyat zamanı qarşıya qoyulan tapşırıq şərti düşmənin strateji obyektləri və bu obyektləri mühafizə edən təyyarələri məhv etmək olub.

Uçuşlardan öncə təyyarəçilərlə brifinq keçirilib. Əməliyyat planı, hava şəraiti və digər məsələlər müzakirə edilib. Qeyd edək ki, Azərbaycan təyyarəçiləri F-16 qırıcı, türk pilotlar isə MiQ-29 qırıcı və Su-25 bombardmançı təyyarələrində əməliyyata qatılıblar. MiQ-29 və F-16 qırıcı, Su-25 bombardmançı təyyarələrin iştirak etdiyi əməliyyat uğurla başa çatıb.

Təlimlərin ssenarisinə əsasən, bundan öncə taktiki-uçuş tapşırığına uyğun olaraq, Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları birgə F-16 və MiQ-29 qırıcı, Su-25 bombardmançı təyyarələri ilə şərti terrorçuların yerləşdiyi məkanların, həmçinin "düşmənin" hərbi hava limanının və strateji obyektlərinin, məhvetmə əməliyyatını keçirmişdilər. Birgə keçirilən əməliyyat uğurla başa çatmışdı.

"TURAZ Şahini - 2016" təlimləri həm döyüş hazırlığı, həm də müasir dünya standartlarıyla tanışlıq baxımından çox önəmlidir.

* * *



Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin iştirakı ilə Konya şəhərində keçirilən "TURAZ Şahini - 2016" taktiki-uçuş təlimləri başa çatıb.

Azərbaycan Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov və Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı orgeneral Abidin Ünal təlimlərin yekun mərhələsini izləyiblər.

Hər iki komandan uğurla başa çatan təlimlərdə uçuş, texniki və təminat heyətlərinin böyük təcrübə qazandıqlarını bildirib. Hərbi pilotların döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılmasında bu kimi təlimlərin əhəmiyyəti xüsusi qeyd olunub və növbəti birgə təlimlərin keçirilməsinin zəruriliyi də əminliklə ifadə edilib.

Sonda "TURAZ Şahini - 2016" təlimlərinin iştirakçıları aviasiya bazasının ərazisində xatirə olaraq ağac və gül kolları əkiblər.

**"Azərbaycan Ordusu"**



## Türkiyəli pilot Timur Gegeoğlu:

# Eyni dildə danışmaq qardaşlığın bariz nümunəsidir

Türkiyənin Konya şəhərində iki qardaş ölkənin Hərbi Hava Qüvvələrinin illik hərbi əməkdaşlıq planına əsasən, "TURAZ Şahini - 2016" taktiki-uçuş təlimləri keçirilib. Təlimlərin məqsədi beynəlxalq manevr üsullarına uyğun olaraq qarşıya qoyulan vəzifələri icra etmək, sistem fərqlilikləri olan təyyarələrin birlikdə təhlükəsiz uçuş qaydalarını dərindən öyrənmək, vəzifələrin planlaşdırılması, həyata keçirilmə metodları, hava-hava, hava-yer atışlarında təcrübə mübadiləsini və iki ölkənin Hərbi Hava Qüvvələri arasındakı əlaqələrin inkişafını təmin etməkdir.

Təlimlər zamanı türkiyəli pilot Timur Gegeoğlu ilə həmsöhbət olmaq imkanı qazandıq.

***- Cənab kapitan, sizin ölkədə təyyarəçilərə xüsusi ehtiram var. Pilot olmaq üçün nə etməli?***

- Təyyarəçi olmaq həqiqətən çətin və peşəkarlıq tələb edən işdir. Ölkəmizdə təyyarəçi olmaq üçün Hava Hərb Məktəbini qazanmaq lazımdır. Bu məktəbi qazanan hər bir şəxs 4 il mühəndislik ixtisası üzrə təhsil alır. Məzun olduqdan sonra əlavə 3 il təhsil alır və təyyarəçi olur.

***- Təyyarəçi olmaq həqiqətən çətin və peşəkarlıq tələb edən işdir. Pilot olmaq istəyiniz hardan qaynaqlanıb?***

- Böyük qardaşım F-4 təyyarəsində zabit olub. Təyyarə və təyyarəçilik anlayışlarını və bu peşəyə həvəsi məndə o yaradıb. Onun sayəsində dəfələrlə F-4-ə minmək imkanı qazandım və uçmağın gözəl bir hiss olduğunu o zaman anladım. Yaşımın az olmasına baxmayaraq, səmalara qalxdığımı xəyal edirdim və sonda Allahın qismətiylə pilot oldum.

***- İlk uçuşunuzu xatırlayırsınız?***

- 1999-cu ilin avqustunda Hava Hərb Məktəbinə daxil olarkən T-41 tipli tək mühərrikli, pərvanəli təyyarəylə uçmağa başladıq. İlk dəfə səmaya qalxmağım, təyyarənin təkərlərinin yerdən üzüldüyü an hər zaman xatirimdə və gözlərimin önündədir. O an nə qədər doğru qərar verdiyimi anladım. Həyata keçirdiyim bu uçuşun davamı gəldi, çox çalışdım və F-16-nın pilotu oldum.



***- Türkiyə Silahlı Qüvvələrində Hərbi Hava Qüvvələrinə diqqət və qayğı necədir?***

- Türkiyə Silahlı Qüvvələrində hava, dəniz, quru, jandarma, sahil güvənlik və s. kimi qoşun növləri var. Bütün bunların arasında Hərbi Hava Qüvvələri və pilotlar ordunun göz bəbəyidir, desək, tam yerinə düşər.

***- Nə vaxtdan F-16 qırıcı təyyarəsini idarə edirsiniz? Bu təyyarə hansı imkanlara malikdir?***

- 2005-ci ildən F-16 ilə Türkiyə səmalarındayam. F-16 qırıcı təyyarələri 1972-ci ildən ABŞ-ın Lokhid Martin korporasiyası tərəfindən istehsal edilir. Hazırda ABŞ başda olmaqla, dünyanın 19 ölkəsinin Hərbi Hava Qüvvələrinin əsasını təşkil edir. Bu təyyarələrin gövdəsi radarlara yaxalanma riskini azaldan xüsusi texnologiya əsasında hazırlanıb. 15 min metr yüksəklikdə, 1100 kilometr sürətlə uçarkən katapult etməsinə imkan verən kreslo ilə təchiz edilib. Yüksək manevr qabiliyyətinə malik olan F-16 təyyarələri təyinatından asılı olaraq müxtəlif tipli silah sistemləri, M61-A-1 markalı, dəqiqədə 511 mərmi ata bilən dördlüləli avtomatik top, yaxın hava döyüşü üçün 6 idarəedilən hava-hava raketi, habelə yerüstü hədəflərə zərbə endirmək üçün hava-yer raketləri, idarəedilən lazer bombaları, hədəfə elektron sistemlə yönləndirilən idarəedilən raketlərlə təchiz edilib. Beləliklə, təyyarə hava döyüşü ilə yanaşı, yerüstü hədəflərə qarşı da effektiv şəkildə tətbiq edilir. Xüsusən minlərlə kilometr yüksəklikdən və uzaq məsafədən yerüstü hədəflərə dəqiq zərbələr endirir.

***- "TURAZ Şahini - 2016" təlimlərinin əhəmiyyəti barədə nə deyə bilərsiz?***

- Azərbaycanın ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsini xatırlamaq yerinə düşər. Azərbaycanla qardaşlıqdan da yüksək münasibətlərimiz var. Qardaşlığımızı yalnız hərbi cəhətdən deyil, bütün sahələrdə də inkişaf etdirməliyik.

Sizinlə eyni dildə danışmaq və anlaşmaq qardaşlığın bariz nümunəsidir. Təlimlərin ən önəmli tərəfindən biri də ondadır ki, sizin mədəniyyətinizlə yaxından tanış olur, eyni bir millət olduğumuzu daha dərindən başa düşürük.

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu"**

# Vətənə ləyaqətlə xidmət edəcəklərinə söz verdilər



**Bayram günündə hərbi hissənin həyatı üçrəngli, ayulduzlu bayrağımızla bəzədilmişdi. Buraxılış mərasimi üçün son hazırlıq işləri görülürdü. Bu gündən ordu sıralarına müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və gizir kimi daxil olacaq gənclər öz yerlərini tutur, valideynlər isə onlar üçün nəzərdə tutulmuş yerlərdə dayanırlar. Budur, hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilir.**

Kursları müvəffəqiyyətlə bitirən məzunların buraxılış mərasiminə hazır olmaları ilə bağlı komandirə məruzə edilir.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirilir.

Mərasimdə məzunlar adından çıxış edənlər bildirdilər ki, doğma Vətənin müdafiəsində daim ayıq-sayıq dayanacaq, verilən tapşırıqların öhdəsindən layiqincə gələcəklər.

Valideynlərdən Abdulla Kazımov çıxış edərək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və gizir hazırlığı kurslarının muxtar respublikamızda təşkil olunmasını ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü tədbir kimi qiymətləndirdi.

Buraxılış mərasimində çıxış edən zabitlər onlarla birlikdə xidmət edəcək məzunları ordu sıralarına qəbul olunmaları münasibəti ilə təbrik edərək, çətin və şərəfli xidmətlərində uğurlar arzuladılar.

Əlahiddə Ümumqoşun Ordu Komandanının təbriki şəxsi heyətə çatdırıldı.

Təbrikdə bildirildi ki, bu gün Naxçıvan Muxtar Respublikasında Vətənə sədaqətli, peşəkar hərbçi kadrların hazırlanması diqqət mərkəzindədir.



Kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar təqdim edildi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və gizir hazırlığı kurslarının birinciləri Hüseyn Paşayev və İlkin Səfərli tərəfindən yaş kötükləri buraxılış emblemləri vuruldu.

Ardınca motoatıcı ixtisası üzrə kursu bitirənlər tərəfindən gözləri bağlı vəziyyətdə müxtəlif atıcı silahların normativə uyğun sökülüb-yığılması nümayiş olundu.

Artilleriya ixtisası üzrə kursu bitirənlər tərəfindən D-30 və D-44 topları normativə uyğun "döyüş" və "səfər" vəziyyətinə gətirildi.

Xüsusi təyinatlıların nümunəvi çıxışlarından sonra məzunların tribuna önündən təntənəli keçidi oldu.

Sonda məzunlarla xatirə şəkli çəkdirildi.

Azərbaycan Silahlı Qüvvələrinin öz sıralarına növbəti vətənpərvər övladlarını qəbul etdiyi bir gündə valideynlərin sevinc dolu təəssüratlarını öyrəndim. Mehdi Heydərov, Qurban Sadiqov və başqaları övladlarının ordu sıralarında Vətənə ləyaqətlə xidmət edəcəklərinə inamlarını sevinc və qürur dolu sözlərlə ifadə etdilər.

Gənclərimizin müvafiq kurslar üzrə ordu sıralarına hazırlanmasında zabitlərin də böyük zəhməti vardır. Həmin zabitlərdən Müseyib Qasımov, Dəyanət Abbasov, Elvin Xəlilov və Şahin Abbasov söhbət zamanı bildirdilər ki, keçirilən dərs və məşğələlər zamanı gənclərin təkcə müvafiq ixtisaslar üzrə deyil, həm də mənəvi-psixoloji, fiziki və döyüş hazırlıqlarının artırılmasına önəm verilir.

Beləliklə, məzunların növbəti buraxılış mərasimi əsl bayram əhval-ruhiyyəsi ilə başa çatdı. İnanıram ki, məzunlardan Hüseyn Vəliyev, Elçin Əliyev, Rahib Ağalarzadə, Ərkan Eyvazov, Asəf Quliyev və adlarını bir yazıya sığdıra bilmədiyim digər gənclər də özlərindən əvvəlki məzunlar kimi ümidləri doğruldacaq, Vətənə ləyaqətlə xidmət edəcəklər.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, martın 21-dən 25-dək Qori şəhərində (Gürcüstan Respublikası) "Beynəlxalq həftə" tədbiri, Oberammerqau şəhərində (Almaniya Federativ Respublikası) NATO qüvvələrinin qorunması və NATO qərargah zabitləri üçün tanışlıq kursları, martın 21-dən iyunun 9-dək isə Nova Qoritsa şəhərində (Sloveniya Respublikası) orta səviyyəli ingilis dili kursu keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

## Azərbaycanla ABŞ arasında hərbi əməkdaşlıq məsələləri üzrə görüş keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, martın 23-də Vaşinqton şəhərində ABŞ-ın Müdafiə Departamenti ilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi arasında NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı çərçivəsində götürülmüş məqsədlərin yerinə yetirilməsi, NATO ilə hərbi uzlaşma səviyyəsinin yüksəldilməsi, o cümlədən digər hərbi əməkdaşlıq məsələlərinə dair ikitərəfli görüş keçirilib.

Görüşlərdə ölkələrimiz arasında strateji tərəfdaşlıq əsasında ikitərəfli və NATO proqramları çərçivəsində əməkdaşlıq, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər və perspektiv planlar müzakirə edilib.

Azərbaycan tərəfdən nümayəndə heyətinə Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov, ABŞ tərəfdən isə ABŞ Müdafiə katibinin nümayəndəsi Maykl Karpenter rəhbərlik edib.

# Məktəblilər hərbi hissələrdə olublar

**Hərbi Hava Qüvvələrinə məxsus hərbi hissələrdə də ordu və ictimaiyyət münasibətlərinin inkişaf etdirilməsinə ciddi fikir verilir. Bayramlar, əlamətdar günlər ərəfəsində yaxın bölgələrin aidiyyəti təşkilatlarının və təhsil müəssisələrinin nümayəndələri hərbi hissələrə gələrək ölkəmizin hava sərhədlərinin keşiyində dayanan şəxsi heyətlə görüşürlər. Hər belə tədbir əsgərlərin xatirəsində xoş hadisə kimi silinməz iz buraxır.**



Novruz bayramı ərəfəsində Kürdəmir rayon məktəbliləri və pedaqoji kollektivlərin nümayəndələri ənənəyə sadiq qalaraq yenə də "N" hərbi hissəsində olublar.

Əsgərlər qarşısında çıxış edən Kürdəmir rayon təhsil şöbəsinin müdir müavini Mehman Osmanov və bir neçə məktəbin hərbi rəhbərləri şəxsi heyəti Novruz bayramı münasibətilə təbrik ediblər. Son illər ölkəmizdə ordu quruculuğunun inkişafında qazanılmış uğurlardan məmnun qaldıqlarını bildirən təhsil işçiləri müasir dövrdə əsgərlərin sosial-məişət şəraitinin yaxşılaşmasından, ordu və cəmiyyət münasibətlərinin formalaşmasından söhbət açıblar. Onlar əminlik hissi ilə qeyd ediblər ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında hərbi qüdrətini gücləndirməkdə olan Silahlı Qüvvələrimiz qarşıya qoyulan mühüm döyüş vəzifəsinin öhdəsindən bacarıqla gələcəkdir.

Sonra hərbi hissələrin zabitlərindən polkovnik-leytenant Azər Yaqubov çıxış edib və bayram ərəfəsində əsgərlərin görüşünə gəldikləri üçün müəllim-şagird kollektivinə komandanlıq adından minnətdarlıq bildirib.

Yuxarı sinif şagirdlərindən ibarət olan məktəblilər əsgər yataqxanasına, yeməkxanaya baş çəkiblər, həmçinin ordumuzun silahlanmasına daxil edilən müasir silah və texnikalarla tanış olublar. Kürdəmir rayon təhsil şöbəsinin nümayəndəsi qeyd edib ki, əsgərlərin hərbi xidməti və məişəti ilə tanışlıq gənc nəslin vətənpərvərlik tərbiyəsində, onların hərbi xidmətə hazırlanmasında böyük əhəmiyyət daşıyır.

**"Azərbaycan Ordusu"**

*Publisistik düşüncələr*

# Ordu quruculuğunda azərbaycançılıq



Dövlətçiliyimizin təməllərindən biri də azərbaycançılıq məfkurəsidir.

Tarixən formalaşmış müxtəlif amilləri vahid bir sistem kimi dövlət idarəçiliyinin əsasına çevirən böyük tarixi şəxsiyyət Heydər Əliyev azərbaycançılığı Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərləri, adət-ənənələri yaşatmaq kimi müəyyənləşdirir, milli ideologiyaya çevrilən azərbaycançılığı Azərbaycanı qoruyub saxlamaq, dövlətçiliyi möhkəmləndirmək vasitəsi kimi dəyərləndirirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq." Hər bir azərbaycanlı fəaliyyətini belə müəyyənləşdirməlidir.

Azərbaycançılıq, digər sahələrdə olduğu kimi, ordu quruculuğunun da başlıca istiqamətini müəyyənləşdirir. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığı məhz azərbaycançılıq ideologiyası əsasında qurulur.

Azərbaycançılığı şərtləndirən əsas amillərdən biri milli-mənəvi dəyərlərdir. Bu dəyərlər sistemi vətənpərvərlik termini ilə ifadə olunur. Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq olaraq, Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin müxtəlif vaxtlarda, müxtəlif regionlarda keçirdiyi tədbirlərin başlıca qayəsi vətənpərvərlikdir (azərbaycançılıqdır). Bu tədbirlər ayrılıqda da, vəhdətdə də, cəmiyyətdə də azərbaycançılığın təzahürüdür. "Ordum varsa, yurdum var", "Xalq ordunun, ordu xalqın dayağı", "Sənə inanırıq, ölkə rəhbəri, Sənə güvənirik, Vətən əsgəri", "Hər kənddən bir ağsaqqal, hər səngərdən bir əsgər", "Qarabağa yaz gələcək", ... kimi tədbirlərin (ssenari müəllifi və rejissoru əməkdar incəsənət xadimi, şair-publisist, polkovnik Abdulla Qurbani) mahiyyəti Silahlı Qüvvələrin şəxsi heyətinin vətənpərvərlik hisslərini azərbaycançılıq məfkurəsi əsasında formalaşdırmaq baxımından dəyərlidir.

Azərbaycançılığın ilkin şərti dildir. Tədbirlərin ssenarisinin Azərbaycan dilinin zənginliklərinə vaqiflik əsasında yazılması da diqqət çəkir; tədbirlərdə folklor nümunələrinə, bu sıradan bayatılarımıza, deyimlərimizə istinad edilir ki, bu da fikrin təsirini daha da artırır, vətənpərvərliyin (azərbaycançılığın) zərrə-zərrə formalaşmasına zəmin yaradır. Mətnlərin əksəriyyətinin şeirlə təqdim edilməsi həm forma yeniliyi, həm də kəsərliyi ilə səciyyəvidir. Məlum həqiqətdir ki, şeir, poetik təhkiyyə duyğulara, düşüncələrə daha güclü təsir göstərir. Bu baxımdan ssenari müəllifi tədbirlərdə obrazların ictimailəşdirdiyi fikirlərin əksəriyyətini yüksək poetik dəyərə malik şeirlərlə təqdim edir:

Bu Vətənin
Daşı-dağı,
Gur bulağı,
axar suyu,
zərif gülü,
tər çiçəyi,
Çiçəyində ləçəyinin
şehi ilə vətənləşək,
Çiçəklərə sığal çəkən
mehi ilə vətənləşək!..
Nizaminin,
Füzulinin,
Nəsiminin, ...
Yer üzünə heyrət olan
əsəriylə vətənləşək,
Xətainin qılıncının
kəsəriylə vətənləşək!..

Dədə Qorqudluq işartıları olan kəlamlar Vətənin əsrarəngiz təbiətinin söz təsvirləri-di və mahiyyət etibarilə azərbaycançılıqdı....

Dövlətçiliyimizin möhkəmləndirilməsində digər amillərlə bir sırada azərbaycançılıq da mühüm ideoloji vasitələrdəndir. Ordu ilə xalqın birliyini təmin edən azərbaycançılıq məfkurəsi ərazilərimizin işğaldan azad edilməsini də təmin edəcəkdir.

Horadizdə keçirilən tədbirdə xüsusi təyinatlılar müxtəlif təmrinləri yerinə yetirdi. Piramida şəkilli düzülüş də, sonuncu əsgərin üçrəngli bayrağımızı ucalıqda dalğalandırması da ssenari müəllifinin yozumunda azərbaycançılığın, ucalıq Şuşanın, əsgərlər ordunun rəmzi idi.

Əksəriyyəti özünəməxsus tarix dərsi təsirində qəbul edilən teatrlaşdırılmış tədbirlərdə müxtəlif dövrlərdə yaşamış sərkərdələrimizin, dastan, nağıl qəhrəmanlarımızın, şairlərimizin, ... obrazlaşdırılmasını, təkcə tədbirin məzmunu ilə məhdudlaşdırmaq insafsızlıq olardı. Bunlar həm də azərbaycançılıq məfkurəsinə xidmət kimi dəyərlidir...

Milli ənənələrimiz hər birimizi yaxın-uzaq tariximizlə də, bu günümüzlə də yaşadır, sabahlarımızın ruhmisallı yoluna dönür. Bu, azərbaycançılıqdır. Bu ənənələrdən biri Vətən yolunda can əsirgəməyənlərə qədərsiz saygıdır. Tədbirlərdə şəhidlərimizin ruh qiyafəsində gəlişi, əsgərlərə tövsiyəsi müqayisəyəgəlməz səviyyədə təsirli olur. Beyləqanda keçirilən tədbirdə şəhid atası oğlunun obrazını yaradan əsgəri bağrına basdı. "Özün də, sözün də mənə dərdimi unutdurdu, ay oğul. Bu gündən oğul bilirəm səni..." - dedi şəhid atası. Bir anlıq sükutun mahiyyəti böyük bir mətləbin söz təsdiqidi.

Ağsaqqal kəlamını dinləmək, bu kəlamı, müəyyən mənada, yaşam düsturu ələmək də milli-mənəvi dəyərlərimizdəndir. Gədəbəydə "Hər kənddən bir ağsaqqal, hər səngərdən bir əsgər" tədbiri məhz bu amil müstəvisində keçirildi. Əsgərlər ağsaqqalların tövsiyələrini Vətənin tövsiyəsi bildi. Onlar Vətənin kəlamlarını xidmət yoldaşlarına da çatdıracaqdılar; bu tədbirin zəmanəti ilə ağsaqqal kəlamı Silahlı Qüvvələrimizdə dədə öyüdü kimi yaşam qazandı...

Tədbirlərdə Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solistlərinin ifasında vətənpərvərlik mahnıları səslən-dirilir. "Çağırış", "Yol verin, əsgər gəlir", "Vətən bayatıları"... kimi mahnıların aşıladığı duyğular mükəmməl təsirə malikdir.

Tədbirlərdən birində "Vətən bayatıları" səslənirdi. Mahnını "yaralı əsgər" səsləndirirdi.

Burda yolum oldu tən,
Varmı bu yoldan ötən?!
Bu dünyada ən şirin,
Bir anadır, bir Vətən, -

misraları səslənincə, "yaralı əsgəri" öz oğlu bilən bir ana hıçqırıq içində "Can, ay bala", - dedi. Mənəvi dəyərlər sırasında soydaş dərdini öz dərdi bilmə kimi ali, bəşəri bir duyğu da var. Tədbir bu duyğunun da yaşarı olmasına saygı kimi dəyərləndirilməlidir...

Bu qəbil tədbirlər Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığını məhz azərbaycançılıq məfkurəsi əsasında formalaşdırır. General-mayor Rasim Əliyevin Xocavənddə keçirilən tədbirdə dediyi kimi, "Tədbirlərin ümumi mahiyyəti ordu ilə xalqın birliyinin təsdiqidir, vətənsevərlikdir, azərbaycançılıqdır...". Bu baxımdan Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin müxtəlif vaxtlarda, müxtəlif regionlarda keçirdiyi tədbirləri mənəvi dəyərlərə söykənən, yüksək təsir gücünə malik olan əsərlər hesab etmək mümkündür...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan tərəfi təxribatlarını gizlətmək məqsədilə dezinformasiya yaymağa üstünlük verir

ATƏT-in Minsk Qrupu həmsədrlərinin Novruz və Pasxa bayramları müddətində atəşkəs rejiminə ciddi əməl edilməsi çağırışı Ermənistan tərəfindən birtərəfli qaydada rədd edilib.

Novruz ərəfəsində və bayram günlərində Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı silahlardan, minaatan və qumbaraatanlardan istifadə etməklə qoşunların təmas xəttində gərginliyi xeyli artırıb. Düşmən mövqelərimizi, cəbhəboyu zonada yerləşən kəndləri, eləcə də hərbi əhəmiyyət kəsb etməyən mülki obyektləri atəşə tutmaqda davam edib.

Bu günlər ərzində düşmən tərəfindən açılan atəşlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində martın 19-da müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rüstəmov Əsəd Vahid oğlu və martın 20-də isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Həsənov Nicat Cəbrayıl oğlu yüngül yaralanıb. Hərbçilərə tibbi yardım göstərilib və onların həyatı üçün heç bir təhlükə yoxdur.

Hər dəfə vasitəçilərin sülh təşəbbüslərinə Ermənistan tərəfinin cəbhədə təxribat törətməklə gərginlik yaratmasının müntəzəm xarakter alması artıq təəccüb hissi doğurmur. Azərbaycan tərəfi vasitəçiləri, bütün beynəlxalq təşkilatları erməni tərəfinin yaydığı dezinformasiyalara uymamağa və onun təxribatlarına müvafiq qiymət verməyə çağırır.

Müdafiə Nazirliyi bildirir ki, düşmənə qarşı tətbiq olunacaq cəza tədbirləri və bundan sonra onun verəcəyi itkilərə görə məsuliyyət hər zaman olduğu kimi, Ermənistanın kriminal rejiminin üzərinə düşəcəkdir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***24 mart 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 109 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə və Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Çaylı, Yarımca, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Sarıcalı, Kəngərli, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqeləri və səngərlərinə 110 dəfə atəş zərbəsi endirib.

***25 mart 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 117 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Berdavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Kəmərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Şıxlar, Sarıcalı, Kəngərli, Cəvahirli, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqeləri və səngərlərinə 119 dəfə atəş zərbəsi endirib.

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | mayor Vahid MƏHƏRRƏMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361 Sifariş № 142 Nüsxə 4700 |